Narkomaniya insanlığın qənimidir

Narkomaniya xəstəliklə bərabər, cinayətkar ordusu yaradan bir bəladır. Bu gün narkomaniya və onun törətdiyi fəsadlar təəssüf ki, ölkəmizdə də aktual problemdir. Bu problemlər bir tərəfdən dünyada baş verən sosial-iqtisadi çətinliklərdən, təhsildəki problemlərdən, informasiya çatışmazlığından, digər tərəfdən gənclər arasında hüquqi maarifçilik işinin zəif aparılmasından irəli gəlir. Narkomaniyanın cinayətkar ordusu yaratması fikri ona əsaslanır ki, bu bəlaya düçar olmuş şəxsin narkotikdən asılılığı zaman keçdikcə daha da artır və o, zərərli tələbatını ödəmək üçün ilkin olaraq kiçik cinayətlərdən (evdən pul oğurlama, evindəki əşyaları satma və s.) başlasa da, tədricən əsl cinayətkara çevrilir, daha mütəşəkkil və qəsbkar talama cinayətləri törədir, hətta bunun üçün adam öldürməkdən belə çəkinmir. Beləcə, həmin şəxslər əvvəlcə valideynlərini, ailələrini, dostlarını, ən son isə öz həyatlarını və gəncliklərini tamamilə itirirlər. Belə halların qarşısını almaq üçün ilk növbədə məktəblərdə və ali təhsil müəssisələrində bununla bağlı maarifləndirmə işlərini gücləndirmək, xüsusi broşürlər, plakatlar hazırlamaq, tez-tez bu istiqamətdə görüşlər təşkil edərək narkomanlığın hər bir şəxsə və cəmiyyətə vura biləcəyi ziyanı aydın şəkildə izah edib göstərmək lazımdır.

Ümummilli liderimiz Heydər Əliyev 1997-ci ilin fevral ayında Bakıda keçirilən BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağlı problemlər üzrə Yardımçı Komissiyanın 32-ci sessiyasının açılışında söylədiyi nitqində qeyd etmişdir: "Narkotiklərə nəzarət, narkomaniya və narkobiznes ilə mübarizə əsrimizin son illərində dünyada ümumbəşəri bir problem olmuşdur. Bu mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizədir".

Azərbaycan Respublikasında sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Bununla bağlı müxtəlif sahələr üzrə aparılan islahatlar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıq problemlərinin həlli üçün cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini və kompleks mübarizəni zəruri etmişdir.

Qeyd olunan kompleks mübarizənin vahid bir sistem tərəfindən təkmilləşdirilmiş formada aparılması üçün "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli 485 nömrəli Fərmanı ilə əsas vəzifəsi narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdən, bu sahədə dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edilmişdir. Respublikada narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində bir sıra təşkilati-hüquqi, institusional və əməli praktiki tədbirlər həyata keçirilmiş, narkotiklərlə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak daha intensiv xarakter almışdır.

Azərbaycan Respublikası beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək, Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulmuşdur. Ölkəmizdə beynəlxalq standartlara uyğun normativ milli hüquqi baza yaradılmış, təkmilləşdirilmiş və onun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində xeyli iş görülmüşdür.

Bununla yanaşı, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində geniş tədbirləri özündə ehtiva edən proqramlar - Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram", 2007-ci il 28 iyun tarixli 2271 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər üçün)", 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" və son olaraq Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilmiş, daha əvvəlki dövlət proqramlarında olduğu kimi, həmin proqramın da uğurla həyata keçirilməsi üçün müvafiq tədbirlər görülməkdədir.

10 milyon nəfərdən çox əhalisi olan, eyni zamanda, quruda Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistanla, suda Xəzəryanı ölkələrlə həmsərhəd olan Azərbaycan Respublikasının əlverişli coğrafi mövqeyi, narkotiklərin "istehsalçısı" olan Asiya və "istehlakçısı" olan Avropa qitələri arasında yerləşməsi, avtomobil, su, hava və dəmir yolları şəbəkəsi vasitəsilə daşınan yüklərin həcminin, nəqliyyat vasitələrinin və sərnişinlərin sayının ilbəil artması, həmçinin uğurla həyata keçirilən çoxsaylı irimiqyaslı iqtisadi layihələr nəticəsində hər il orta hesabla dünyanın 140-a yaxın ölkəsi ilə qurulan ticarət əlaqələri narkoqaçaqmalçıları özünə cəlb edir. Onlar bu imkanlardan istifadə etməklə, bilavasitə "əfqan" narkotiklərini Avropaya və digər regionlara daşımağa cəhd göstərirlər.

Bundan başqa, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bütün sahələrdə olduğu kimi, narkotiklərin ölkə ərazisində qanunsuz dövriyyəsinə də öz mənfi təsirini göstərmişdir. Belə ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının 20 faiz ərazisinin işğalı, Azərbaycanın İranla olan dövlət sərhədinin 132 kilometrinə Ermənistan silahlı qüvvələri tərəfindən nəzarət edilməsi nəticəsində həmin sahədən Avropa və Qara dəniz hövzəsi ölkələrinə, həmçinin digər dövlətlərə narkotik maddələrin daşınmasının həyata keçirilməsinə, Dağlıq Qarabağ ərazisindən narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, transmilli cinayət üçün nəzarətsiz zona kimi istifadə olunmasına şərait yaradır.

Ümumbəşəri bəla olduğu üçün narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində tədbirlərin həyata keçirilməsi dayandırılmır və mütəmadi xarakter daşıyır.

Narkomaniya və narkomanlığa qarşı mübarizə sahəsində narkotik vasitələrin istifadəçilərinin reablitasiyası istiqamətində "Narkomanlığa düçar olmuş şəxslərin müalicəsi, reabilitasiyası və resosializasiyası üzrə" Proqram hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 276 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Narkomaniyaya qarşı mübarizə ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi ilə yanaşı, digər tədbirlər də həyata keçirilmişdir. Belə ki, ayrı-ayrı vaxtlarda müvafiq icra hakimiyyəti orqanları tərəfindən məktəblilərlə, ümumilikdə gənclər və yerli əhali arasında təşkil edilən görüşlərdə maarifləndirmə tədbirləri həyata keçirilir.

Bəşəri bəla olan narkomaniyanın sərhəd tanımadan genişlənməsi ölkəmiz üçün həlli vacib məsələlərdən birinə çevrildiyindən, dövlətimiz bütün qüvvə və imkanlarını səfərbər edib bu bəlanın kökünün kəsilməsi istiqamətində gedən əsaslı beynəlxalq mübarizəyə qoşulmuş, bu sahədə həyata keçirilən işlər çərçivəsində zəruri qanunvericilik bazası yaradılmış, institusional islahatlar həyata keçirilmiş, Azərbaycan müvafiq beynəlxalq sənədlərə və təşəbbüslərə qoşulmuşdur.

Bu problem hüquqi müstəvidə ilk dəfə ümummilli lider Heydər Əliyevin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 1996-cı il 26 avqust tarixli 485 nömrəli Fərmanında öz əksini tapmaqla, ölkədə sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması və narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir.

Bu strateji kursun uğurlu davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə bu sahədə qətiyyətli mübarizənin təmin edilməsi məqsədi ilə 2024-cü ilə qədər olan dövrü əhatə edən, sayca beşinci "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və digər genişmiqyaslı məsələlərdən ibarətdir.

Ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar göstəricilər halhazırda təhlükəli həddə olmasa da, əhəmiyyətsiz dərəcədə də deyildir. Problemin narahatlıq doğuran məqamlarından biri də narkomaniya və narkobiznes kimi çirkin işlərə yeniyetmələrin və qadınların cəlb edilməsidir.

Məlumdur ki, narkobaronların kifayət qədər zəngin sərvətə malik olması, ölkələrin ictimai-siyasi bünövrəsini sarsıtmağa, hegemonluğa can atması dünya praktikasında analogiyası olan hadisələrdir və cəmiyyətimizin bu qlobal problemə laqeyd yanaşacağı təqdirdə bizim də belə amansız təhlükə ilə üz-üzə qalacağımız danılmaz bir həqiqətdir. Belə təhlükələrlə üzləşməməyimiz üçün isə bütün cəmiyyət, hər bir vətəndaş bilməlidir ki, narkomaniya - qarşısında bəşəriyyətin aciz qaldığı ən arzuolunmaz yoluxucu xəstəlik, sağlamlığın, mənəviyyatın, sevincin, səadətin, ən ülvi hisslərin, bir sözlə, insanlığın qənimidir. Ona görə də dinindən, dilindən, irqindən, milliyyətindən asılı olmayaraq hər bir kəsin öz şəxsiyyəti, ailəsi və ümumilikdə bütün bəşəriyyətin qarşısında ən müqəddəs borcu -insanlığa qənim olan bu bəla ilə fəal mübarizə aparmaq olmalıdır.

Narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Narkomaniya yaddaş və təfəkkürü pozur, həyati proseslərə qarşı laqeydlik yaradır. Cəmiyyətin böhranlı dövründə narkomanlıq artır, sosial münasibətlərə mənfi təsir göstərir. Narkomaniya orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün düşməsinə gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların, xüsusən də qara ciyər və böyrəklərin funksiyasının pozulmasına səbəb olur.

Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatitdir. Narkotik maddələrdən asılılıq narkomaniyaya düçar olmuş şəxslər arasında digər böyük bir problemə - İİV-/QİÇS virusuna yoluxmasına gətirib çıxarır. Təhlillər bir daha sübut edir ki, İİV/-QİÇS-ə yoluxma hadisəsi narkomanlar arasında daha tez baş verir. Bunun narkomanlar arasında yayılmasına ən çox narkotik maddənin hazırlanması üçün lazım olan iynə, şpris və ya digər yoluxmuş alətlərin birgə istifadəsi səbəb olur.

Araşdırmalar nəticəsində müəyyən olunur ki, narkotik maddələrdən istifadə edən insanlarda ilk əvvəl xoş hisslər yaranır və istifadəçilər bu aldadıcı təsirin, yəni, sevinc və enerjinin həmin maddələrdə olmasına inanmağa başlayır. Bu qənaət yanlışdır. Əgər hər şey narkotik istifadəçilərinin düşündüyü kimi olsaydı, cəmiyyətin ən fərəhli, ən gümrah, öz karyerasında və şəxsi həyatında uğur qazanan insanları onlar olardılar.

Narkotikin aludəçiləri arasında aparılan sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər onları narkotikdən istifadəyə istiqamətləndirib. Əlbəttə, narkotikdən sırf əyləncə məqsədilə istifadə edənlərin də olması faktdır.

Narkomaniya insanın tədricən ölümünə səbəb olur. Daha doğrusu, insan şüurlu olaraq özü-özünü ölümə məhkum edir. Belə ki, bu maddələrdən mütəmadi olaraq istifadə edənlərin orqanizmləri zəifləməyə, bədəni gücdən düşməyə, həmçinin daxili orqanları - qara ciyəri, böyrəyi öz funksiyasını itirməyə başlayır. Bundan başqa, narkotik maddələr şəkərli diabet, hepatit kimi xəstəliklərin də yaranmasına səbəb olur. Nəhayət, yuxarıda da qeyd olunduğu kimi, QİÇS kimi təhlükəli bir xəstəlik qaçılmaz olur. Bütün bunlarla yanaşı, narkotikin təsirindən həmin insanların yaxınları, ətrafındakıları ilə problemlər yaranır, onlar psixoloji sarsıntılar keçirərək ətrafında olan insanlara zərər verməyə başlayırlar.

Azərbaycan Respublikası narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə siyasətini üç əsaslı yanaşma ilə həyata keçirir: narkotik maddələrə tələbatın azaldılması, narkotik təminatının azaldılması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi.

Narkotik maddələrə tələbatın azaldılması

Narkotiklərdən asılı olan insanların müalicə metodları və bu istiqamətdə təbliğat kampaniyaları ilə yanaşı, Azərbaycan Respublikasının əlaqəli qurumları narkotik maddələrə tələbatın azaldılması üzrə effektiv qabaqlayıcı tədbirlər həyata keçirir.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası bu prosesdə mühüm rol oynayır. Komissiya narkotiklərdən qeyri-qanuni istifadəyə qarşı mübarizə və narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində Dövlət proqramları qəbul edir və həmin proqramın aidiyyəti qurumlar tərəfindən icrasına nəzarət edir.

Həmçinin Komissiya sözügedən istiqamət üzrə qurumlararası əlaqələndirici olmaqla yanaşı, ictimai maarifləndirmə sahəsində də məsul qurumdur.

Komissiya ölkənin bütün ərazisini əhatə etmək məqsədilə regionlarda öz yerli bölmələrini qurmuş və əhali arasında narkotiklərdən istifadənin ziyanı və mənfi nəticələri ilə bağlı fəal təbliğat kampaniyaları aparır.

Narkotiklərə aludə olmuş şəxslərin müalicə metodlarının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə müvafiq metodlar təkmilləşdirilmiş və müalicə mərkəzləri ən son avadanlıqlarla təchiz olunmuşdur.

Bu gün Azərbaycanda əczaxanalarda narkotik tərkibli dərmanların satışının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının müvafiq qurumları tərəfindən mütəmadi olaraq yoxlamalar aparılır.

Narkotik təchizatının azaldılması

Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə aparan hüquq-mühafizə orqanlarının tərəfindən narkotik təchizatının azaldılması tədbirləri həyata keçirilir.

2020-ci ilin ilk 3 ayı ərzində qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin miqdarı aşağıdakı kimidir:

Marixuana	Tiryək	Heroin	Həşiş	Psixotrop maddələr və digərləri	Cəmi
236 kq 009 qr	93 kq 253,9 qr	233 kq 805 qr	16 kq 694 qr	51 kq 111 qr	630 kq 872,9 qr

Beynəlxalq əməkdaşlıq

Narkotiklərin qeyri-qanuni daşınmasının və istifadəsinin bir çox ölkəyə təsir etdiyini nəzərə alaraq, bu istiqamətdə ölkələr arasında ikitərəfli və beynəlxalq qaydada əməkdaşlığın qurulması çox vacibdir.

Azərbaycan Respublikası BMT-nin "Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası"na, "Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası"na, "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası"na qoşulmuş və bir sıra ölkələrlə əməkdaşlıq sazişləri imzalamışdır.

BMT Konvensiyaları ilə yanaşı, Azərbaycan Respublikası Avropa Şurası Nazirlər Komitəsinin narkotiklərdən qeyri-qanuni istifadə və narkotiklərin qanunsuz daşınmasına qarşı mübarizə üzrə əməkdaşlıq (80 (02) və 80 (15) saylı qətnamələr) haqqında Avropa Şurasının Pompidou Qrupuna qoşulmuş və ABŞ, Böyük Britaniya, Almaniya, Misir, Körfəz ölkələri, MDB ölkələri və digər ölkələrin müvafiq qurumları ilə müvafiq razılaşmalar imzalamışdır.

Azərbaycan narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə istiqamətində həyata keçirilən bir sıra beynəlxalq layihələrdə iştirak edir. Avropa İttifaqı və BMT-nin maliyyə dəstəyi ilə Cənubi Qafqazda Narkotiklərə Nəzarət Proqramı çərçivəsində Daxili İşlər Nazirliyi tərkibində doqquz regional mərkəz yaradılmış və narkotiklər, prixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı milli elektron baza yaradılmışdır.

Azərbaycan qərargahı Qazaxıstanın Almatı şəhərində yerləşən Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin aktiv üzvüdür. Mərkəzin təşəbbüskarı olaraq, Azərbaycan Respublikası MARİƏM-i region ölkələrinin bu istiqamətdə uğuru və regional əməkdaşlığın nümunəsi hesab edir.

Sonda qeyd etmək lazımdır ki, "Ağ ölüm" adlandırılan narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bir gün deyil, hər gün mübarizə aparmaq hüquq-mühafizə orqanları ilə yanaşı, hər bir vətəndaşın borcudur.

✍ **Selcan Familzadə,**
Baş Prokurorluğun İstintaq idarəsinin böyük prokuroru